

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 49 (22.960)

14 mart 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçallı qəbul edib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VI Qlobal Bakı Forumunun önəmini qeyd edən xanım Ana Birçall forumda iştirakından məmnunluğunu bildirib.

Dövlətimizin başçısı 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini deyib.

Görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin yüksək səviyyəyə çatdığı vurğulanıb, ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı və əməkdaşlığımızın böyük potensialının olduğu qeyd edilib.

Görüşdə, həmçinin qarşılıqlı sərmayə qoyuluşu və hər iki ölkədən olan şirkətlərin bu sahədə fəaliyyətinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında neft və qaz təminatı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Həziyev İsa Şahbaz oğlu;

İbrahimov Şirzad Heydər oğlu;

Rzayev Kazım İsa oğlu;

Yusifov Zakir Həsən oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 mart 2018-ci il*

## Kəngərli rayonunda yeni qapalı suvarma şəbəkəsi qurulacaq





Əkinçiliyin inkişafı sahəsində həyata keçirilən tədbirlər sırasında müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması mühüm əhəmiyyət daşıyır. Hər il muxtar respublikada bu istiqamətdə silsilə tədbirlər görülür, mütərəqqi suvarma şəbəkələri qurulur, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Bu il də Kəngərli rayonunda yeni qapalı suvarma şəbəkəsi qurulacaqdır.

Martın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin layihəsinə və tikinti aparılacaq əraziyə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, qapalı suvarma şəbəkəsi "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin 410 hektar əkin sahəsində qurulacaqdır. Layihəyə uyğun olaraq ərazidə 2065 metr dəmir borularla ana xətt, 6402 metr magistral xətt, 42 min 303 metr plastik borularla paylayıcı suvarma şəbəkəsi və qrunt sularının axıdılması üçün 3 min metr açıq kollektor çəkiləcəkdir. Xətlərin üzərində 7 sutənzimləyici siyirtmə, 449 hidrant və 70 suburaxıcı quraşdırılacaqdır. Həmçinin bu il Kəngərli rayonunun Yeni Kərki və Xok kəndlərinin torpaq sahələrini əhatə edən qapalı suvarma şəbəkəsindəki hidrantlarda supaylayıcı hovuzlar qoyulacaq, ərazidə boru xətti çəkiləcək və yeni hidrantlar quraşdırılacaqdır. Ümumilikdə tikinti işləri zamanı 100 nəfər işlə təmin olunacaqdır.

Ali Məclisin Sədri təməli qoyulan qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi nəticəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılacağını bildirmiş, bu münasibətlə tədbir iştirakçılarını təbrik edərək demişdir: Bu gün muxtar respublikada 160 min hektar əkinəyararlı torpaq sahəsinin 62 min hektarından istifadə olunur ki, onun da cəmi 52 min hektara yaxını suvarılan ərazilərdir. Ona görə də muxtar respublikada suvarılan torpaqların sahəsinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və ərzaq təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas vəzifələrdəndir. Hazırda muxtar respublikada əsas ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir. Lakin muxtar respublikanın ehtiyat taxıl fondu kənardan alınır. Mütərəqqi suvarma sistemlərinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ilə bu problem də tamamilə həll olunacaqdır. Muxtar respublikanın illik taxıla olan tələbatı 150 min tondur. Buna görə də taxıl sahələrinin genişləndirilməsinə diqqət yetirilməli, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmalı, əkilən torpaqların məhsuldarlığı artırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Əkinəyararlı torpaqların suvarılması qarşıda duran əsas vəzifələrdəndir. Qapalı suvarma şəbəkəsinin qurulması da yeni torpaq sahələrini əkin dövriyyəsinə qatmaqla yanaşı, həm də iş yerlərinin yaranmasına, torpaqların normalara uyğun suvarılmasına, şoranlaşmanın qarşısının alınmasına, bol məhsul istehsalına və tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcəkdir. Ona görə də tikinti işləri keyfiyyətli aparılmalı, bütün mühəndis-texniki tələblərə ciddi əməl olunmalıdır.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamış, tikinti zamanı istifadə olunacaq materiallara baxmışdır. Bildirilmişdir ki, tikinti aparılarkən ərazinin relyefi və iqlim şəraiti nəzərə alınacaq, keyfiyyət amilinə xüsusi diqqət yetiriləcək, ölkəmizdə istehsal olunan plastik borulardan və digər materiallardan istifadə olunacaqdır.

Ali Məclisin Sədri ərazidə qapalı suvarma şəbəkəsinin qurulmasının payız əkin dövrünə qədər başa çatdırılması, toxumçuluq təsərrüfatında taxılla yanaşı, digər kənd təsərrüfatı bitkilərinin əkilməsi və toxuma olan tələbatın ödənilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının yaranmasının 25 illiyi münasibətilə tədbir keçirilib



Martın 13-də keçirilən tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov açaraq qeyd edib ki, 1992-ci ilin sonu, 1993-cü ilin əvvəllərində partiyanın yerlərdə təşkilatlarının yaradılması prosesi gedirdi. Bu çərçivədə 1993-cü il martın 13-də partiyanın Şahbuz Rayon Təşkilatı yaradıldı. Həmin gün təşkilatın I təsis konfransı keçirildi. Konfransda partiyanın yaradıcısı olan ulu öndərimiz Heydər Əliyevin iştirak etməsi tarixi bir hadisə idi.

Rizvan Məmmədov rayon təşkilatı tərəfindən ötən illər ərzində keçirilən tədbirlər barədə də ətraflı məlumat verib. Bildirilib ki, aprel ayının 11-nə təyin olunmuş prezident seçkilərində Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının üzvləri də fəallıq nümayiş etdirəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin sədri Vüqar Muradov, birliyin üzvü Aytac Eylazova və Şahbuz şəhər 1 saylı ərazi ilk partiya təşkilatının sədri, şura üzvü Sədaqət İsmayılova çıxış ediblər.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxışında vurğulayıb ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan abadlıq-quruculuq tədbirləri bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun göstərdiyi diqqət və qayğının nəticəsində ötən illər ərzində Şahbuz rayonunda 21 icra nümayəndəliyi, 25 təhsil, 52 mədəniyyət, 23 səhiyyə, 45 Yeni Azərbaycan Partiyası ərazi təşkilatı, 21 bələdiyyə, 21 baytarlıq, 20 rabitə, 19 poçt bölməsi üçün yeni binalar tikilib, müasir iş şəraiti yaradılıb, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu əsaslı şəkildə yenidən qurulub.

Vurğulanıb ki, bu gün yaranmasının 25 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı bundan sonra da qurucu partiyanın sıralarının genişləndirilməsinə diqqəti artıracaq, layiqli gəncləri partiya sıralarına cəlb edəcəkdir.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov çıxış edərək bildirib ki, Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olmasında Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri və rolu vardır. Bu gün partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə fəaliyyətini qətiyyətlə davam etdirir.

*Tədbirdə rayon təşkilatının yaradıcılarından olan veteran partiyaçılara xatirə hədiyyələri təqdim olunub.*

**Xəbərlər şöbəsi**

# Prezident seçkilərinə hazırlıqla əlaqədar olaraq seminar-treninqlər keçirilir



***Bu il aprelin 11-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə hazırlıqla əlaqədar martın 12-dən başlayaraq muxtar respublikada fəaliyyət göstərən seçki dairələrinin dairə seçki komissiyalarında məntəqə seçki komissiyalarının üzvləri üçün seminar-treninqlər keçirilir.***

4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının iclas zalında keçirilmiş növbəti seminar-treninqi giriş sözü ilə açan dairə seçki komissiyasının sədri Cahangir Seyidov "Seçki məntəqələrinin səsverməyə hazırlanması" mövzusunda çıxış edib. O bildirib ki, seçki məntəqələrində səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı, səsvermə üçün zəruri olan material və avadanlıqlar yerləşdirilməlidir. Xüsusilə diqqət yetirilməlidir ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Mərkəzi Seçki Komissiyasının təlimatları, seçici siyahısı, daşınan və daşınmaz seçki qutuları və digər material və avadanlıqlar seçki məntəqələrində olsun. Seçki bülleteninin doldurulmasına dair izah səsvermə kabinəsində mütləq yerləşdirilməlidir və məntəqə seçki komissiyasının sədri səsvermə saatlarında həmin plakatların yerində olmasını müntəzəm olaraq yoxlamalıdır. Səsverməyə 24 saat qalmış seçicilərin maarifləndirilməsi üçün nəzərdə tutulan məlumatlar istisna olmaqla, bütün təşviqat materialları səsvermə otağının daxilindən və xaricindən çıxarılmalıdır. Məntəqə seçki komissiyasının katibi seçki məntəqəsinə gəlmiş bütün müşahidəçilərin akkreditasiyasını və qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin və KİV nümayəndələrinin lövhəciklərini yoxlamalıdır.

Dairə seçki komissiyasının sədri vurğulayıb ki, səsvermə başlanmazdan əvvəl məntəqə seçki komissiyasının üzvləri seçki bülletenlərini saymalı, onların hər birinin möhürləndiyini yoxlamalıdır. Səsvermə günü səhər saat 07[50]-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərir, onları bağlayır, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə kilidləyir. Bu nömrələr müvafiq aktda qeyd olunmalıdır. Gözəgörünməyən mürəkkəb və ultrabənövşəyi lampalar da seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılmalıdır. Daha sonra Cahangir Seyidov səsvermə günü səsvermə otağında kimlərin ola biləcəyi və zəruri hallarda seçki məntəqəsinə kimlərin dəvət oluna biləcəyi barədə ətraflı məlumat verib.

Dairə seçki komissiyasının katibi Ramal Salmanov çıxışında səsvermə prosesi haqqında məlumat verərək qeyd edib ki, məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında iş bölgüsü aparərkən qanunvericiliyin tələblərini gözləməlidir. Səsvermənin başlandığı elan olunduqdan sonra məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin əvvəlcə xüsusi maye ilə işarələndiyi müəyyən etmək üçün ultrabənövşəyi lampadan istifadə etməklə yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir. Əgər seçici barmağının işarələnməsindən imtina edərsə, ona seçki bülleteni verilməyəcəyi həmin komissiya üzvü tərəfindən izah olunmalıdır. Seçici razılaşmadığı təqdirdə ondan seçki məntəqəsini tərk etmək tələb olunmalıdır.

Çıxışda seçki bülletenini sərbəst almaq imkanına malik olmayan seçicilərin məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, başqa şəxslərin köməyindən istifadəsinin hansı hallarda mümkünlüyü haqqında da danışılıb.

Diqqətə çatdırılıb ki, seçici səsvermə kabinetinə daxil olaraq öz səsvermə hüququnu reallaşdırmalıdır. Səsvermə kabinetinə digər şəxsin daxil olmasına yol verilmir. Seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan əlil seçici, məntəqə seçki komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi (burada yalnız həmin seçki məntəqəsi üzrə səsvermədə iştirak edən seçicilərdən biri nəzərdə tutulur) kömək üçün kabinetə çağıra bilər. Seçici səsvermə kabinetində öz səsvermə hüququnu ifadə etdikdən sonra seçki bülletenini yarıdan qatlamaqla seçki qutusuna yaxınlaşıb bülleteni ora atmalıdır.

Səsvermə günü səsvermə yerində qaydaqanuna nəzarət məntəqə seçki komissiyasının sədri tərəfindən həyata keçirilir. Seçki günü ictimai asayişin qorunması üçün formada olan polis əməkdaşları seçki məntəqəsinə yalnız məntəqə seçki komissiyasının sədrinin dəvəti ilə daxil ola bilərlər. İctimai asayiş bərpa edildikdən sonra polis işçiləri seçki məntəqəsini tərk etməli və azı 100 metr aralıda olmalıdırlar. Amma onların seçici qismində bir dəfə seçki məntəqəsinə daxil olmaq hüquqları var.

Ramal Salmanov səsvermə prosesindən danışarkən iki mühüm məsələ – qeydiyyatdançıxma vəsiqələri və daşınan seçki qutusu vasitəsilə səs vermək hüququ barədə də məlumat verib. Saat 19[00]-da məntəqə seçki komissiyasının sədri səsvermənin başa çatdığını ucadan elan edir. Bu zaman səsvermə otağında növbəyə dayanmış seçicilərin səs verməsi və səs verdikdən sonra seçki məntəqəsini tərk etmələri təmin olunmalıdır.

Seminarda çıxış edən dairə seçki komissiyasının baş məsləhətçisi Nail Həsənov səslərin sayılması və protokolların doldurulması barədə danışıb. O bildirib ki, axırıncı seçici səs verdikdən sonra məntəqə seçki komissiyasının sədri seçki bülletenlərinin sayılması prosesində iştirak etmək hüququ olan şəxslərdən başqa hamının seçki məntəqəsini tərk etməsini təmin etməli və seçki məntəqəsi bağlanmalıdır. Səslərin hesablanma prosesi, bütövlükdə, səsvermə otağında həyata keçirilməlidir. Daşınan və daşınmaz seçki qutuları, seçicilər siyahısı və digər seçki materialları səslərin hesablanması başa çatanadək həmin otaqda qalmalıdır. Səslərin hesablanması zamanı səsvermə məntəqəsində yalnız məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri, qeydə alınmış prezidentliyə namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, yerli və beynəlxalq müşahidəçilər, qeydiyyatdan keçmiş KİV nümayəndələri ola bilər. Lakin səslərin sayılmasını yalnız məntəqə seçki komissiyasının həlledici səs hüquqlu üzvləri birbaşa həyata keçirirlər. Səslərin hesablanması üçün münasib şərait yaradılmalı, bu zaman zəruri olan bütün sənədlər və əşyalar səslərin hesablanacağı masaya gətirilməlidir.

Məntəqə seçki komissiyasının sədri seçki bülletenlərinin sayılması və səsvermənin nəticələri haqqında protokolun doldurulması qaydalarını məntəqə seçki komissiyasının üzvlərinə bir daha izah etməli, tətbiq olunacaq ümumi prosedurlar barədə izahat verməlidir. Səsvermənin nəticələri haqqında protokol tərtib edilərkən onun hər bir bəndi otaqda ucadan elan edilir. Yadda saxlamaq lazımdır ki, rəsmi yekun protokolu tərtib edilməzdən əvvəl məlumatlar protokolun qaralama nüsxəsində sözlə və rəqəmlə qeyd olunur. Hazırlıq prosesində sonra hesablama prosesi müəyyən mərhələlər üzrə həyata keçirilir. Daha sonra Nail Həsənov səslərin hesablanması və protokolun doldurulmasının mərhələləri haqqında komissiya üzvlərini ətraflı məlumatlandırıb.

**Naxçıvan Muxtar Respublikası**
**Mərkəzi Seçki Komissiyası**



*Aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq işləri ilə bağlı lazımi tədbirlər yüksək səviyyədə həyata keçirilir. Bu tədbirlərin davamı kimi 2 saylı Şərur Dairə Seçki Komissiyasının əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün seminar-treninq təşkil edilib.*

Tədbirdə əvvəlcə dairə seçki komissiyasının sədri İbrahim Abbasov seçkilərə hazırlığın vəziyyəti barədə məlumat verib. Qeyd edilib ki, dairə seçki komissiyası öz işini Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və Mərkəzi Seçki Komissiyasının müvafiq qərarlarına uyğun qurub.

Məlumat verilib ki, 2 saylı Şərur Dairə Seçki Komissiyası 53 məntəqəni əhatə edir. Məntəqələr zəruri ədəbiyyatlarla, seçkilərə aid dövri nəşrlərlə təmin edilib, seçici siyahılarının dəqiqləşdirilməsi xüsusi diqqət mərkəzində olub. Dairə seçki komissiyasının əhatə etdiyi məntəqələrdə seçki qanunvericiliyinə uyğun olaraq tərtib olunmuş iş planı əsasında tədbirlər davam etdirilir. Bunlardan biri də aşağı seçki komissiyaları üzvlərinin peşəkarlığının artırılması məqsədi daşıyan seminar-treninqlərdir.

Seminar-treninqlərdə müxtəlif metodik və əyani vəsaitlərdən istifadə edilməklə iştirakçılara təqdimat bacarıqları, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə müfəssəl məlumat verilib. Həmçinin məntəqə seçki komissiyalarının rolu və vəzifələri, seçki günü prosedurlar, bülletenlərin təsnifatı, yekun protokolunun doldurulması və digər məsələlərlə bağlı qanunvericilikdə nəzərdə tutulmuş vəzifələr izah olunub.

Qeyd edək ki, dairə seçki komissiyasının martın 12-dən təşkil etdiyi seminar-treninqlər 3 gün davam edəcək və hər treninqdə 35-40 nəfər komissiya üzvü iştirak edəcək.

Seminar-treninqlərdə informasiya texnologiyalarının imkanlarından istifadə etməklə tədbir iştirakçılarının vəzifələrini əyani şəkildə göstərən slayd nümayiş etdirilir.

**Mehman MƏMMƏDOV**

# Muxtar respublikanın enerji təhlükəsizliyi təmin olunmuşdur



***Elektrik enerjisi cəmiyyətin sosial-iqtisadi inkişafında və tərəqqisində mühüm rol oynayır. Bu istiqamətdə muxtar respublikada müasir elektrik stansiyaları yaradılır, maddi-texniki baza gücləndirilir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir.***

Muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açmışdır. Belə ki, 2006-cı ildən başlayaraq ötən dövrdə Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, Babək rayonunda 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Əgər əvvəllər muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılmışdır. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji ixrac edən regiona çevirmişdir.

Elektrik enerjisinin istehlakçılara keyfiyyətli və fasiləsiz çatdırılması istiqamətində ötən dövrdə "Sədərək", "Çeşməbasar", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan", "Ordubad", "Qıvraq", "Nehrəm", "Şahbuz" və digər transformator yarımstansiyaları tikilmiş və ya yenidən qurulmuşdur.



2017-ci ildə muxtar respublikada 431 milyon 691 min kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bu da 2006-cı ildəki göstəricidən 93,2 faiz çoxdur. 2017-ci ildə muxtar respublikada elektrik enerjisinin 231 milyon 432 min kilovat-saatı və ya 53,6 faizi istilik elektrik stansiyalarında, 168 milyon 946 min kilovat-saatı və ya 39,1 faizi su elektrik stansiyalarında, 31 milyon 313 min kilovat-saatı və ya 7,3 faizi isə Günəş Elektrik Stansiyasında istehsal edilmişdir. Alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 46,4 faizini təşkil etmişdir. Ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78,3 faizi muxtar respublikada istehsal olunmuşdur.

Alternativ və bərpaolunan enerji növləri istehsalının daha da artırılması məqsədilə hazırda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsi üzrə Naxçıvan şəhərində daha müasir smartkarttipli sayğacların quraşdırılması işləri davam etdirilir.

2017-ci ildə muxtar respublikaya səfəri zamanı enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu, çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək".***

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**mətbuat xidməti**

*Azərbaycan Respublikasının 1991-ci ildən üzvü olduğu və fəal əməkdaşlıq etdiyi İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) rəsmi internet səhifəsində muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar fotogörüntülər, həmçinin ərəb, ingilis və fransız dillərində məqalə yerləşdirilib. “Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri Asiya regionu üzrə 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtıdır” sərlövhəli məqalənin mətnini oxucularımıza təqdim edirik.*

*Naxçıvan xarici mediada*

## Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri Asiya regionu üzrə 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtıdır




Beşminillik şəhər mədəniyyətinə malik olan Naxçıvan şəhəri Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biridir. Bu şəhər 5,5 min kvadratkilometr əraziyə və təqribən, 450 min nəfər əhaliyə malik olan, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası və Ermənistan Respublikası ilə həmsərhəd Naxçıvan Muxtar Respublikasının paytaxtıdır.

Naxçıvanın muxtariyyət tarixi 1921-ci ildə imzalanmış iki mühüm beynəlxalq sənəddə – Moskva və Qars müqavilələrində əks olunub. Moskva müqaviləsinin 3-cü, Qars müqaviləsinin 5-ci maddələri muxtariyyətin və eləcə də Naxçıvan Muxtar Respublikasının ərazisinin əsaslarını müəyyən edir. Bu sənədlərə əsasən 1924-cü ildə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası yaradılıb.

Beş şəhər, 8 şəhərtipli qəsəbə və 206 kənddən ibarət olan Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş mövcud Konstitusiyasına əsasən muxtar dövlətdir. Beş il müddətinə seçilən 45 deputatlı Ali Məclis Naxçıvanın ali qanunverici orqanıdır. Azərbaycan Respublikası Konstitusiyası və Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Ali Məclisin Sədri Naxçıvanın ali rəsmi şəxsidir.

Geostrateji mövqeyə malik Naxçıvan Qafqaz regionunda qədim tarixi ilə seçilir. Buradakı mədəniyyətin formalaşması və inkişafı qədim Azərbaycandakı zəngin sivilizasiyasının ən mühüm göstəricisidir. Eyni zamanda çoxmilli ənənələrin mövcud olduğu, zənginləşdiyi bu diyar Azərbaycan dövlətçiliyinin də tarix və mədəniyyətinə öz töhfəsini verir.

Naxçıvan XII əsrdə Atabəylər, XVIII-XIX əsrlərdə Naxçıvan xanlığı, XX əsrin əvvəlində Araz-Türk Respublikası kimi müxtəlif dövlətlərin paytaxtı olmuşdur.

Orta əsr türk-islam mədəniyyətinin izlərini özündə yaşadan Naxçıvan tarixi arxitektura nümunələri hesab edilən möhtəşəm qalaları, məqbərələri, həmçinin qədim yurd yerləri, təbiət abidələri ilə zəngindir. Naxçıvanda 57-si dünya, 496-sı isə yerli əhəmiyyətli olmaqla, 1200-dən artıq tarixi abidə qeydə alınmışdır.

Bu səbəbdən Naxçıvan bəşəri, dini, milli dəyərlərə və adət-ənənələrə bağlılığı, onların qorunub saxlanılması, tarixi abidələrin, qeyri-maddi mirasın və mədəniyyətin mühafizə edilməsi, bərpa olunub dünyaya tanıdılması kimi çoxəsrlik İslam mədəniyyəti nailiyyətlərinin mövcud olduğu bir torpaqdır.

Bundan başqa, öz nailiyyətləri ilə İslam mədəniyyətinə töhfə verən Naxçıvanda elm və təhsilin inkişaf etdirilməsi əsas prioritetlərdən biridir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Heydər Əliyev adına Hərbi Lisey, 3 kollec, 5 peşə məktəbi və 216 orta məktəb kimi çox sayda təhsil mərkəzlərində təhsil və mədəniyyət layihələri həyata keçirilir.

Tarixi və mədəni potensialı, İslami nailiyyətləri və inkişaf perspektivləri nəzərə alınaraq, 2009-cu ilin oktyabrında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün Asiya regionu üzrə İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir.

**Hazırladı: Əli CABBAROV**

*Səhiyyə*

## Əhaliyə nümunəvi tibbi xidmət göstərilir

***Son illər muxtar respublikada bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də xeyli uğurlu nəticələr əldə edilib. Səhiyyə müəssisələrinin təmir və bərpası, müasir tibbi avadanlıqlarla təchiz olunması və digər tədbirlər bu sahədə qazanılan uğurların təməl daşlarıdır. Bu tədbirlər zamanı yüksəkixtisaslı kadrların hazırlanması işi də diqqətdən kənarda qalmayıb. Naxçıvan Dövlət Universiteti və Naxçıvan Tibb Kollecində hər il müxtəlif ixtisaslı həkim və tibb işçiləri yetişdirilir.***




Muxtar respublikada tibb fəaliyyəti ilə məşğul olan özəl müəssisələrə də hərtərəfli dövlət qayğısından xeyli pay düşüb. Naxçıvan şəhərində fəaliyyət göstərən “Şəfa” Özəl Tibb Mərkəzi də bu qayğıdan bəhrələnib. Mərkəz 2000-ci ildə yaradılıb, 2006-cı ildən isə yeni binada fəaliyyətini davam etdirir. Müəssisədə müxtəlif klinikalarda təkmilləşmə kursu keçmiş 12 yüksəkixtisaslı və elmi dərəcəli həkim, 20-dən artıq tibb işçisi çalışır. Bəs ötən dövr ərzində mərkəzdə hansı yeniliklər baş verib? Vətəndaşlar bu səhiyyə ocağının xidmətindən razıdırlarmı?

Elə bu suallara cavab tapmaq üçün ötən günlərdə adıçəkilən ünvanda olduq. Mərkəzə çox sayda vətəndaşın müraciət etməsi nəzərimizdən yayınmadı. Öyrəndik ki, əvvəllər yerli həkimlərə üz tutmaqdan ehtiyat edənlər indi bu imkanlardan lazımınca istifadə edirlər.

Mərkəzin direktoru Əmir Kərimov bildirdi ki, bu gün muxtar respublikada səhiyyə sahəsinə göstərilən dövlət qayğısı yüksək səviyyədədir. Bu səhiyyə müəssisəsi də bu qayğıdan bəhrələnir. Əks təqdirdə müasir tələblərə cavab verən belə bir səhiyyə ocağının yaradılması və fəaliyyət göstərməsi qeyri-mümkün olardı. Götürülən güzəştli kredit hesabına mərkəzdə müasir tələblərə uyğun səhiyyə xidməti təşkil olunub.

Mərkəzin direktoru onu da bildirdi ki, il ərzində Bakı şəhərindən və xarici ölkələrdən təcrübəli həkimlər buraya dəvət olunur. Onların iştirakı ilə bir sıra əməliyyatlar həyata keçirilir. Bakı şəhərindən dəvət olunanlar arasında professor Çərkəz Cəfərov, cərrah-proktoloq Məsmə Həsənova, lor-cərrah Tələt Şəfiyev, neyrocərrah Elçin İbrahimov, oftalmoloq Ergün Rəşidəlizadə, travmotoloq Sənan Aşurov və digərlərinin adlarını qeyd etmək olar. Bu təcrübəli həkimlərin mütəmadi olaraq mərkəzdə ciddi əməliyyatlarda iştirak etmələri xəstəxanada yeni işə başlayan tibb işçilərinin əlavə təcrübə qazanmalarına şərait yaradır. Lakin bu, o demək deyil ki, mərkəzdə təcrübəli həkimlər azdır. Belə ki, bir çox əməliyyat xəstəxananın öz həkimləri tərəfindən aparılır.

Apardığımız müşahidələrdən də aydın oldu ki, burada nümunəvi səhiyyə xidməti üçün hər cür şərait vardır. Yüksək səviyyədə təmir edilmiş geniş və işıqlı palatalar, təmiz yataq dəstləri burada xəstələrin rahat şəkildə müalicə almaları üçündür. Mərkəzdə mədə-bağırsaq sistemində cərrahi və rekonstruktiv əməliyyatlar, qaraciyər və öd yolları, mədəaltı vəzin, ginekoloji və digər ciddi xəstəliklərin müalicəsi təcrübəli həkimlər tərəfindən müasir üsullarla aparılır.

Öyrəndik ki, mərkəzdə Stasionar, Reanimasiya, Poliklinika, Balneoloji, Göz şöbələri fəaliyyət göstərir. Şöbələrdə Yaponiya, Almaniya, Türkiyə və Rusiyanın istehsalı olan tibbi avadanlıqlar quraşdırılıb. Balneoloji şöbənin həkimi Sadıq Sadıqov dedi ki, burada hidrokolon aparatı vasitəsilə 30 dəqiqə ərzində bağırsaqlar yuyulub təmizlənir ki, bu da bir sıra xəstəliklərin müalicəsində effektli nəticə verir.





Poliklinika şöbəsində yerləşən və gün ərzində fasiləsiz fəaliyyət göstərən laboratoriyada bütün növ analizlər aparılır. Göz şöbəsi müasir müayinə avadanlıqları ilə təchiz edilib. Burada Türkiyə Respublikasından dəvət olunmuş tanınmış həkim Kənan Yıldırım xəstəxananın həkimləri ilə birgə göz xəstəliklərinin müayinə və müalicəsini həyata keçirir. Reanimasiya şöbəsi və əməliyyat blokları mərkəzləşmiş oksigenlə təmin olunub. Burada quraşdırılan çoxkanallı anestezioloji monitordan istifadə etməklə əməliyyatlar izlənilir. Mərkəzdə, həmçinin Funksional diaqnostik kabinə yaradılıb ki, burada ürəyin EKQ-si, qarın boşluğu orqanlarının ultrasonoqrafik müayinəsi həyata keçirilir.

Mərkəzin təcrübəli həkimlərindən Əli Əliyev, Rəşad Məmmədov, Fərqanə Mustafayeva, Cavid Qənbərli və Valid Kazımov buraya üz tutan insanlara nümunəvi səhiyyə xidməti göstərmək üçün səylə çalışırlar. Qeyd edək ki, Rəşad Məmmədov 4 il İstanbul şəhərindəki Gülhanə Hərbi Tibb Akademiyasında çalışıb. Fərqanə Mustafayeva Moskva şəhərində ikillik kliniki təcrübə keçib. Tanınmış səhiyyə işçisi Əli Əliyev isə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil alıb. Elə bunun üçün də xəstəxanaya pənah gətirənlər, necə deyərlər, naümid qalmırlar. Bunu xəstəxananın imkanlarından yararlanıb şəfa tapanlar daha yaxşı bilərlər. Mərkəzə gəlmişkən, onlardan bəziləri ilə görüşüb söhbət etdik.

Naxçıvan şəhər sakini, əvvəllər mexaniki bağırsaq keçməməzliyi xəstəliyindən əziyyət çəkən 2008-ci il təvəllüdlü Xanım Qalayeva bu səhiyyə ocağında həmin xəstəlikdən müalicə olunub. Məhz elə buna görədir ki, atası Cəmşid Qalayev bizimlə söhbətində sevincini gizlədə bilmədi. O dedi ki, övladını buraya gətirəndə, necə deyərlər, əlini həyatdan üzmüşdü. Onun belə asanca sağalacağına inamı yox idi. Ancaq bacarıqlı həkimlər və yaradılan şərait ailələrinə sevinc bəxş etdi. Övladına bəxş olunan həyata görə dövlətimizə və qayğıkeş həkimlərə minnətdardır.

Digər müsahibim Müçtəba Seyidov isə dedi:

– Biz müstəqil respublikanın xoşbəxt insanlarıyıq. Çünki hərtərəfli şəraitlə təmin olunmuş xəstəxanalarda müalicə alırıq. Xatirimdədir, sovetlər dövründə bu cür şəraitə malik səhiyyə ocağı tapılmaz, tibbi xidmətdən söhbət gedə bilməzdi. Lakin bu gün muxtar respublikada vəziyyət tam fərqlidir. Son illər tikilib istifadəyə verilən müasir xəstəxana binaları əhaliyə və tibb işçilərinə əvəzsiz töhfədir. Müalicə aldığım bu səhiyyə ocağında gördüklərimdən deyə bilərəm ki, burada çalışan tibb işçiləri göstərilən qayğıya öz əməli işi ilə cavab verməyə çalışır, əhalinin sağlamlığının keşiyində dayanmağı müqəddəs vəzifə hesab edirlər. Bizə isə onlara minnətdar olmaq qalır.

*Bəli, bu gün muxtar respublikamızda fəaliyyət göstərən dövlət səhiyyə ocaqlarında olan şərait özəl müəssisələrdə də vardır. Bunu qonağı olduğumuz “Şəfa” Özəl Tibb Mərkəzinin timsalında daha aydın görə bilərik.*

**Nail ƏSGƏROV**

## Əsgərlər üçün bayram tədbiri təşkil olunub

*Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bölmələrindən birində Novruz bayramı münasibətilə tədbir keçirilib.*

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Mirqiyas Rüstəmov hərbi hissənin əsgərləri qarşısında çıxış edərək bildirib ki, Azərbaycan xalqı qədim zamanlardan yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayıb, bu münasibətlə şənliklər keçirib, onu yeni ilin başlanğıcı kimi qeyd edib. Xalqımız Novruzu bolluq, bərəkət, firavanlıq rəmzi hesab edib. Min illər bundan əvvəl yaranmış Novruz bayramı bu gün daha yüksək əhval-ruhiyyə ilə qeyd olunur.





Mirqiyas Rüstəmov hərbi hissənin şəxsi heyətini Novruz bayramı münasibətilə təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov, Şərur Rayon Təhsil Şöbəsinin əməkdaşı, şair-publisist İbrahim Yusifoğlu və Şərur Rayon Mədəniyyət Sarayının direktor müavini, Azərbaycan Respublikasının Əməkdar artisti Nemət Sultanov çıxış edərək bildiriblər ki, çoxəsrlik tarixə malik xalqımızın günümüzə qədər yaşatdığı Novruz bayramı özündə həyatı, yaranış və dirçəlişi, milli birliyi, təbiətin füsunkar gözəlliklərini əks etdirir. Sovetlər zamanı qadağan olunmuş bu bayram xalqın yaddaşında yaşayaraq müstəqillik qazanıldıqdan sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd olunmağa başlanılıb.

Çıxış edənlər Novruz bayramı münasibətilə əsgərləri təbrik edib, onlara Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmağı arzulayıblar.

Bayram tədbirində tonqal qalanıb, nəğmələr oxunub. Tədbirdə Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin “Arpaçay” İnstrumental Ansamblının ifasında səslənən mahnılar və “Şərur” Xalq Yallı Ansamblının ifasında nümayiş olunan rəqslər maraqla qarşılanıb.

**Xəbərlər şöbəsi**

*Gəncliyimiz, gələcəyimiz*

## İstedadlı gənclər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar

Bu gün muxtar respublikamızda gənclərə göstərilən qayğının nəticəsidir ki, onların cəmiyyət həyatındakı rolu günü-gündən daha da artır. Gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı isə muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının parlaq ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis olunub. Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli Sərəncamına əsasən incəsənət və idman sahələrində fərqlənən səkkiz gəncin adı Gənc İstedadların "Qızıl kitabı"na salınaraq onlara müəyyən edilmiş məbləğdə aylıq təqaüdün verilməsi təmin olunub. Ali Məclisin Sədri 2018-ci il fevralın 23-də isə "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb. Sərəncamla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na adları yazılmış gənc istedadlar üçün xüsusi aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 150 manat müəyyənləşdirilib. Bu, muxtar respublikamızın gənc istedadlarına göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi kimi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb. Biz də öz növbəmizdə belə gənc istedadlardan bəzilərini oxucularımıza daha yaxından tanıtmaq istədik.

Naxçıvan Musiqi Kollecinin Balaban ixtisası üzrə ikinci kurs tələbəsi Sərxan Əliyev hələ kiçik yaşlarından öz istedadı ilə həmyaşıdlarından seçilib. Təsadüfi deyil ki, Sərxanın adı 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb. Gənc istedadların aylıq təqaüdünün artırılması ilə bağlı imzalanan sərəncam onun sevincini ikiqat artırıb. Sərxan Əliyevin dediklərindən:



– Mən 2000-ci il mart ayının 18-də Şərur şəhərində dünyaya göz açmışam. Kiçik yaşlarımdan musiqiyə böyük həvəsim olub, xalq musiqilərini heyranlıqla dinləmişəm. Əvvəllər balaban ifaçılarına həsədlə tamaşa edir, bu sənəti öyrənməyə can atırdım. Elə bu düşüncə ilə də 2011-ci ildə Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq İncəsənət Məktəbinin balaban sinfinə yazıldım. Məktəbdə oxuduğum müddətdə bu sənətə marağım daha da artdı, balabanın bütün incəliklərini öyrənməyə çalışdım. Həmin illərdə keçirilən müsabiqə və konsertlərdə çıxışlarım maraqla qarşılandı. Ötən dövr ərzində bir çox diplom, fəxri fərman və qiymətli hədiyyələr qazanmışam. Hazırda Naxçıvan Musiqi Kollecinin Balaban ixtisası üzrə II kurs tələbəsiyəm. Kollecdə gənc musiqiçi kadrların yetişməsi üçün hər cür şərait var. Ötən il yanvar ayının 16-da adımın Gənc İstedadların "Qızıl kitabı"na yazılması təkcə məni deyil, valideyn və müəllimlərimi də hədsiz dərəcədə sevindirdi. Bu, məni daha da həvəsləndirdi, gələcək fəaliyyətimə stimul oldu. Ötən ayın 23-ü isə daha bir xoş xəbər ailəmizə sevinc bəxş etdi, təqaüdüm artırıldı. Göstərilən diqqətə, yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

Bu gün Naxçıvanda bütün idman növləri kimi şahmat da kütləvi idman növünə çevrilib. Bu idman növünün inkişafına göstərilən diqqət sayəsində çox sayda zəka sahibləri yetişib. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi, FİDE ustası Sadiq Məmmədovdur. 2003-cü ildə Naxçıvan şəhərində anadan olan Sadiq kiçik yaşlarından şahmatla məşğul olmağa başlayıb. Hazırda Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə oxuyan zəka sahibinin dediklərindən:



– Mən 8 yaşımdaykən Neftçala rayonunda şahmat üzrə keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında iştirak edib ilk uğuruma imza atmışam. Bundan bir il sonra Gürcüstanın Kutaisi şəhərində təşkil olunan Avropa kubokuna qatıldım, burada yaxşı nəticə göstərdim. Ümumiyyətlə, ötən illər ərzində çox uğurlar qazanmışam. Şahmat mənə çox şey bəxş edib. Oyun üslubumu necə seçməyimi, hansı gedişlərdə düzgün addım atmağımı isə müəllimlərimdən öyrənirəm. 2014-cü ildə adım Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilib. Bu, məni daha da ruhlandırıb, yarışlara məsuliyyətlə hazırlaşmağa, uğurlarımın artmasına stimul olub. Elə bu amil sayəsində öz üzərimdə çalışaraq 2017-ci ildə ilk dəfə olaraq Azərbaycan çempionu adını qazanmışam. Təqaüdümün artırılması isə sevincimi birə-beş artırıb. Sevinirəm ki, biz idmançılara böyük qayğı var. Gələcəkdə şahmat üzrə daha böyük nəticələr əldə etmək niyyətindəyəm.

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 30 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Musiqi Kollecinin Fortepiano ixtisası üzrə birinci kurs tələbəsi Səkinə Quliyevanın adının Gənc İstedadların "Qızıl kitabı"na salınmasını da həmin təhsil ocağının uğurlarından hesab etmək olar. Hələ uşaq yaşlarından musiqi istedadı onu 2008-ci ildə Naxçıvan şəhərindəki 2 nömrəli uşaq musiqi məktəbinin fortepiano sinfinə gətirib çıxarıb. Musiqi təhsilinə ilk olaraq burada başlayan Səkinə oxuduğu illərdə bir sıra uğurlara imza atıb, bacarığı, çalışqanlığı və istedadı ilə digərlərindən fərqlənməyi bacarıb. O, 2010-cu ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş müsabiqədə birinci dərəcəli diploma layiq görülür. Səkinə deyir ki, 10 yaşında qazandığı bu ilk uğur onu və ailəsini xeyli sevindirib. Növbəti uğuru isə 2012-ci ildə Bakıda gənc pianoçuların ikinci respublika müsabiqəsində ikinci dərəcəli diploma layiq görülməsi olub. Həmin müsabiqədə Səkinənin bacarığı respublika səviyyəsində qiymətləndirilib. Bu hadisə gənc istedadımızı ruhlandırır, daha böyük müvəffəqiyyətlərə nail olmaq üçün yorulmadan çalışmağa sövq edir. Əzmlə və həvəslə çalışmağının nəticəsində Səkinə Quliyeva 15 iyun 2015-ci ildə Milli Qurtuluş Gününə həsr edilmiş solo konsert proqramını keçirməyə müvəffəq olur. Konsertin 12 nömrədən ibarət olan çıxış proqramında Vaqif Mustafazadənin, Vasif Adıgözəlovun, Ramiz Mirişlinin və Adil Bəbirovun əsərləri ilə yanaşı, Avropa bəstəkarlarından F.Şubertin, F.Şopenin də əsərləri yer almışdı. Konsert dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanır. Elə həmin ildə Naxçıvan Musiqi Kollecinin Fortepiano ixtisasına qəbul olunan Səkinə burada Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimovanın sinfində təhsil almağa başlayır. Müəllimi Səkinənin çalışqanlığından razı qaldığını bildirir. Gənc musiqiçi isə müəlliminin etimadını doğrultmaq yolunda əlindən gələni edəcəyini və yorulmadan çalışacağını vurğulayır.



7-8 yaşlarından şahmatla məşğul olan Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Pərviz Qasımov da istedadlı gənclərimizdəndir. Şahmata olan həvəsi haqqında bunları deyir: – Şahmata həvəsimin yaranmasında böyük qardaşımın da payı var. Kiçik yaşlarımdan bu idman növü üzrə ciddi çalışmağa başlamışam. Ailəmizin digər üzvləri də məni həmişə dəstəkləyiblər. Hətta bəzi yarışlarda iştirak etməyə tərəddüd etdiyim zamanlarda da onlar məni cəsarətləndirir, uğur qazanacağıma inandırırlar.



Pərviz Qasımov 2014-cü ildə Yunanıstanda keçirilən məktəblilər arasında Avropa çempionatında ikinci, elə həmin il İsmayıllıda keçirilən Azərbaycan şahmat olimpiadasında birinci, Gürcüstanda keçirilən gənclər arasında Avropa çempionatında, Dubayda və Abu-Dabidə keçirilən yarışlarda isə üçüncü yerə layiq görülüb.

Hazırda XI sinifdə təhsil alan Pərviz II ixtisas qrupu üzrə ali məktəbə qəbul imtahanlarına hazırlaşır. Bununla yanaşı, şahmatla da müntəzəm məşğul olur. Bunu asudə vaxtını səmərəli keçirmək üçün adi bir məşğuliyyət saymır, həyatının bundan sonrakı mərhələsində də ona gərək olacağını düşünür. Pərviz deyir ki, qazandığı uğurların təməlində onlara göstərilən dövlət qayğısı durur. Buna görə də muxtar respublikada yeniyetmə və gənclər üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirir.

Göründüyü kimi, muxtar respublikamızda istedadlı gənclərin inkişafı üçün hərtərəfli şərait var. Onların ən böyük himayəçisi isə dövlətimizdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə gənc istedadların aylıq təqaüdünün artırılması isə onlara qayğının davamlı xarakter aldığını göstərir. Ümid edirik ki, dövlətimiz tərəfindən yaradılmış hərtərəfli şərait gənc istedadlarımızın sayını daha da artıracaq, onlar ölkəmizin və muxtar respublikamızın layiqincə tanıdılmasına öz töhfələrini verəcəklər.

**Gülcamal TAHİROVA**
**Nail ƏSGƏROV**

---

*AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova İngiltərənin Kembric Skolars Pablişinq nəşriyyatının "Qeyri-üzvi kimya" jurnalının məsləhətçi redaksiya heyətinin üzvü seçilib.*

## Gənc alimin elmi uğurları

Qeyd edək ki, Günel Məmmədovanın əsas elmi fəaliyyət istiqamətləri qeyri-üzvi birləşmələrin (seolitlərin) quruluşlarının öyrənilməsi və onun əsasında yeni materialların məqsədli sintezinin həyata keçirilməsidir. Gənc alimin elmi-tədqiqat işlərinin nəticələri Azərbaycanda və xaricdə çap olunan bir sıra nüfuzlu jurnallarda dərc edilib.

Günel Məmmədova bu günlərdə Çinin Hangzhou şəhərində iyun ayının 15-17-də keçiriləcək "Ətraf mühit və geoelm" beynəlxalq konfransına rəyçi də seçilib.

**AMEA Naxçıvan Bölməsinin**
**İnformasiya şöbəsi**

---

## Rəsm müsabiqəsinin növbəti turu keçirilib

***Naxçıvan Şəhər Şahmat Məktəbində "Ulu öndər Heydər Əliyev gənc rəssamların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin dördüncü turu keçirilib.***

Tədbirdə Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Hökümə Məmmədli çıxış edərək bildirib ki, Azərbaycan mədəniyyətinin, o cümlədən təsviri sənətinin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider hakimiyyətdə olduğu bütün dövrlərdə rəssamlığa da böyük diqqət və qayğı göstərib.

Qeyd olunub ki, keçirilən rəsm müsabiqəsi təhsil, mədəniyyət və turizm müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2017-2018-ci tədris ili üçün nəzərdə tutulmuş tədbirlər planına əsasən dahi şəxsiyyətin anadan olmasının 95-ci ildönümünə həsr edilib. Müsabiqə muxtar respublika məktəbləri şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsi, gənc nəslin mənəvi, bədii və estetik dünyagörüşünün formalaşması, gənclərdə vətənpərvərlik duyğularının daha da gücləndirilməsi məqsədi daşıyır. Ötən il oktyabr ayının sonlarında start verilən müsabiqə davam etdirilib. Bu müddət ərzində muxtar respublikanın bütün rayonlarında müsabiqənin rayon mərhələləri keçirilmişdir. Rayonlar üzrə fərqlənən şagirdlər bu ilin aprel ayında yekun mərhələdə iştirak edəcəklər.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov ölkəmizdə ulu öndər Heydər Əliyevə həsr olunmuş təsviri incəsənət əsərləri və heykəltəraşlıq nümunələri haqqında müsabiqə iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, son illər Naxçıvan rəssamları da ulu öndərə həsr olunmuş çoxsaylı təsviri incəsənət nümunələri yaratmışlar.



Sonra gənc rəssamların çəkdikləri rəsmlər münsiflər heyətinin iştirakı ilə qiymətləndirilib. Naxçıvan şəhəri üzrə keçirilən müsabiqənin bu mərhələsində Məhəmməd Həsənli (14 nömrəli tam orta məktəb) I, Mehdi Cavadlı (1 nömrəli tam orta məktəb), Cabbar Əliyev (8 nömrəli tam orta məktəb) II, Seymur İbrahimbəyli (3 nömrəli tam orta məktəb), Raul Axundov (5 nömrəli tam orta məktəb) III yerlərə layiq görülüblər. Qaliblər müsabiqənin növbəti mərhələsində iştirak etmək hüququ qazanıblar. Müsabiqədə fərqlənən 5 şagird isə fəxri fərmanlarla təltif olunub.

Qeyd edək ki, Naxçıvan Dövlət Rəsm Qalereyası və muxtar respublikanın rayon təhsil şöbələrinin birgə təşkil etdikləri müsabiqənin bundan əvvəlki mərhələləri bütün rayonlarda keçirilib.

Müsabiqədə rəsm çəkmək bacarığı olan VI-XI sinif şagirdləri iştirak edirlər. Qaliblər və fərqlənənlər Naxçıvan şəhərində keçiriləcək yekun tədbirdə iştirak edəcəklər.

**Əli RZAYEV**

---

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Yeni doğulmuş uşağa adın seçilməsi necə müəyyən olunur?***

***Cavab:*** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 53-cü maddəsinə müvafiq olaraq uşağa ad valideynlərinin razılığı ilə verilir. Valideynlər ad seçimində sərbəstdirlər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 may tarixli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda göstərilir ki, yeni doğulmuş uşağın mənafeyinə xələl gətirə biləcək, habelə şəxsin cinsinə uyğun gəlməyən və ya gülünc adın qoyulmasına yol verilmir.

***Sual:*** ***Ər-arvadın soyad seçmək hüququ necə tənzimlənir?***

***Cavab:*** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 30-cu maddəsinə əsasən ər-arvad öz arzuları ilə onlardan birinin soyadını özləri üçün ümumi soyad seçə, yaxud onlardan hər biri nikahdan əvvəlki soyadını saxlaya və ya öz ərinin (arvadının) soyadını öz soyadı ilə birləşdirə bilər.

Nikaha daxil olanların biri və ya hər ikisi qoşa soyada malik olduqda soyadların birləşdirilməsinə yol verilmir. Ər-arvaddan birinin soyadının dəyişdirilməsi digərinin soyadının dəyişdirilməsinə səbəb olmur. Nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna malikdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ədliyyə Nazirliyinin**
**mətbuat xidməti**

---

***İtmişdir***

Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə aid 0900000371 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 216